

*Fərəhlə qeyd edilməlidir ki, respublikanın qabaqcıl şöbələrindən söhbət düşəndə indi İsmayıllının da adı çəkilir. Halbuki Eldar Səbzəliyevin təyinatınadək rayon mədəniyyət və turizm şöbəsi daim tənqid olunur, ünvanına iradlar söylənirdi. Kadrlar bir-birini əvəz etsə də vəziyyət düzəlmirdi ki, düzəlmirdi.*

# Dönüş yaratmaq naminə

Nəhayət, bu vəzifəyə müsahibimiz təyin olundu və beləliklə hər şey müsbətə doğru dəyişməyə başladı. Söhbət zamanı E.Səbzəliyevdən bunun ağır zəhmət bahasına başa gəldiyini öyrənirik. Şöbə müdiri bütün işlərin mərkəzində dayandığından onun üçün qaranlıq bir şey yoxdur. Nə soruşur, nəyi xəbər alırsansa ətraflı cavab verir və çox maraqlıdır ki, bu qədər uğur qazanmasına baxmayaraq işinə tənqidi yanaşır, nöqsanların ləğvini, çatışmazlıqların aradan qaldırılmasını fəaliyyətinin əsası kimi gördüyünü vurğulayır:

– Hazırda rayonda 13 mədəniyyət evi, 24 klub, 60 kitabxana, 1 incəsənət məktəbi, 2 tarix-diyarşünaslıq muzeyi fəaliyyət göstərir. Mədəni-maarif müəssisələrində xalqımızın milli adət-ənənələrinin qorunub saxlanmasına, uşaqların və gənclərin bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinə və estetik tərbiyəsinə xüsusi diqqət yetirilir. Hər il tarixi günlər, milli bayramlar, görkəmli şəxsiyyətlərin yubileyləri təntənəli şəkildə qeyd edilir. Vaxtaşırı bədii-özfəaliyyət kollektivlərinə baxışlar keçirilir və müsabiqələr təşkil olunur. Belə tədbirlərdə əsas məqsədimiz gənc istedadları aşkara çıxarmaqdan, onların peşəkarlıq səviyyəsini yüksəltməkdən ibarət olmuşdur. 2006-cı il aprel ayında Əli Bayramlı şəhərində keçirilmiş IV respublika xor kollektivlərinin müsabiqəsində rayon incəsənət məktəbinin xor kollektivi uğurla çıxış etmişdir. May ayında uşaq muğam ifaçılarının III respublika müsabiqəsində Kamilə və İlahə Nəbiyeva bacıları müsabiqənin laureatı adına layiq görülərək diplomlarla mükafatlandırılmışlar.

Hesabat dövründə mədəni-maarif müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də müəyyən işlər görülmüşdür.

2006-cı ildə turizmin inkişaf etdirilməsi məqsədilə Lahıcda «Lahıc-Tur» informasiya mərkəzi yaradılmış, rayonda turizmin prespektivləri nəzərə alınmaqla təkliflər hazırlanaraq Mədəniyyət və Turizm Nazirliyinə göndərilmişdir.

Respublikanın digər bölgələrində olduğu kimi İsmayıllı Rayon Mədəniyyət və Turizm şöbəsində şəbəkənin əsasını kitabxanalar təşkil edir. Bu haqda E.Səbzəliyev deyir:

– Rayonda kitabxana maddi-texniki bazasının inkişaf etdirilməsi sahəsində müəyyən işlər görülmüşdür. Belə ki, rayon mərkəzləşdirilmiş kitabxana sistemində 50 milyon manatlıq əsaslı təmir işlərinin aparılması nəzərdə tutulmuşdur. Ötən 2005-ci ildə kitabxananın birinci mərtəbəsində geniş təmir işlərinə başlanmış, dam örtüyü dəyişdirilmiş, qapı, pəncərələr müasir üslubda qoyulmuş, oxu, iş otaqları təmir olunmuşdur. Binada cari ildə təmir işlərinin davam etdirilməsi nəzərdə tutulmuşdur. Ötən il kitabxanalara 2740 manatlıq inventar avadanlıq alınmışdır.

Mərkəzləşdirilmiş kitabxana sistemi üzrə 46.0305 nüsxə kitab vardır ki, bunlardan da 34347 nüsxəsi latın qrafikalıdır. 2004-cü ildə kitabxanalardan məzmunca əhəmiyyətini itirmiş, istifadəyə yararsız 29031 nüsxə ədəbiyyat seçilib fondlardan çıxarılmışdır. Respublika kitabxana kollektoru ilə 15 milyon manatlıq müqavilə bağlanaraq 665 nüsxə kitab alınmışdır. Respublika prezidentinin sərəncamı ilə nəşr olunmuş 29354 nüsxə ədəbiyyat verilmişdir. 314 nüsxə kitab hədiyyə olunmuşdur.

2003-cü ildə İsmayıllı rayon mərkəzi kitabxanası «Beynəlxalq İnternet şəbəkəsinə qoşulması» mövzusunda layihə hazırlayaraq AÇİF (Soros fondu)

elan etdiyi müsabiqədə qalib gələrək 2550 ABŞ dolları məbləğində 7 adda kompyuter dəsti udmuşdur.

MKS-də ABŞ-ın Azərbaycandakı səfirliyi tərəfindən Regional kitabxana məlumat mərkəzi yaradılmışdır. Bu məlumat mərkəzi ABŞ səfirliyi tərəfindən müasir kompyuterlərlə təchiz olunur, regionda olan bütün kitabxana oxucularına yüksək səviyyədə kitabxana xidməti göstərilməsinə təminat yaradır. Beynəlxalq İnternet şəbəkəsinə qoşulmaqla oxucuları hər cür məlumatlarla operativ təmin etməyə imkan yaradır.

Rayonda fəaliyyət göstərən 60 kitabxana filialından 17-si rayon mədəniyyət və turizm şöbəsinin balansında, qalanlar isə kənd inzibati ərazisi nümayəndəliyində, mədəniyyət evlərində, klublarda yerləşmişdir.

İsmayıllıda olasan, Lahıca baş çəkməyəsən – bu qeyri-mümkündür. Eldar müəllimin ətraflı məlumatı bizi bu gözəl diyarı ziyarətə səsləyir:

Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Lahıc qəsəbəsi hazırda İsmayıllı rayonunun ən böyük yaşayış məntəqələrindən biridir. Lahıc qəsəbəsi Böyük Qafqazın cənub yamacında, Babadağ-Niyal silsiləsinin ətəyində, Girdimançayın sol sahili boyunca uzanaraq dəniz səviyyəsindən 1500 m-dən çox hündürlükdə yerləşir.

Yazılı mənbələrdə Lahıcda b.e.-nın IV əsrində yaşayış olması haqqında qeydlərə baxmayaraq əslində ərazidə b.e.-dan əvvəl II-I əsrlərdə insanlar yaşamış və fəaliyyət göstərmişlər.

Yerləşdiyi yerin yüksək dağlıq ərazisi olduğuna görə bu qəsəbədə kənd təsərrüfatının inkişafı üçün şərait olmamış və ona görə də yerli əhalinin əsas məşğuliyyəti xalq sənətkarlıq sahələri olmuş və Lahıclı sənətkarlar xalq sənətkarlığının 40-dək növü ilə məşğul olmaqla ətrafdakı 60-dək (hazırda 20-dək) kənd təsərrüfat məşğuliyyəti olan kəndlərlə birgə bir sistem yaratmışlar. Bununla bərabər Lahıc ustalarının əl işləri Yaxın Şərq, Orta Asiya, Şimali Qafqaz və digər bölgələrin şəhərlərinə daşınaraq satılmış və hər yerdə böyük şöhrət qazanmışdır.

Bu gün Azərbaycanda mühüm turizm məkanlarından biri olmalı olan Lahıcda xalq sənətkarlıq sahələrinin az bir qismi qalmaqdadır. Bir çox tədqiqatçılar tərəfindən Lahıc toponimi ilə az qala eynimənalı hesab olunan misgər və misgərlik sənəti 4-5 usta tərəfindən ( yaxın keçmişdə onların sayı 60-70 nəfər idi) yaşadılır. Çox az bir qisim sərraclar ( at üçün hər cür ləvazimat-yəhər, yüyən və s. hazırlayanlar), dabbaqlar (göndəri aşılayanlar), dəmirçilər (nalbəndlər, bıçaq, qiyməkeş, şiş-manqal və s. hazırlayanlar), corab, əlcək və s. toxuyan qadın toxucular, çay daşının bədii işlənilməsi ilə məşğul olan ustalar, dülgərlər, xalçaçılıq istehsalat müəssisəsində çalışan xalçaçı toxucular və s. hal-hazırda fəaliyyət göstərməkdədirlər. Lakin Lahıcın əsas şöhrəti misgərlik sənəti ilə əlaqədardır. Bu gün Lahıca gələn turistləri qəsəbənin yerləşdiyi coğrafi məkan, gözəl təbiət, dağlar və meşələr, təmiz hava, dağ çayı, tarix və mədəniyyət abidələri (məscidlər, yaşayış evləri, hamamlar, körpülər, bulaqlar, Girdiman qalasının qalıqları və s.) valeh edir və misgərlərin əl işləri (aftafa-ləyən, güyüm, dolça, kasa, satıl, qara çıraq, lampa, tayqulp, sini, məcmeyi, sərpüş, gül qabı, sərnic, samavar və digər əşyalar) onları təkrar-təkrar buraya gəlməyə sövq edir.

***E.Səbzəliyev uğurların qazanılmasında İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nizami Ələkbərovun diqqət və qayğısını xüsusi qeyd edir:***

***- Nə danım, indiyədək neçə başçı ilə işləmişik. Amma beləsi olmayıb. O gələndən dincliyimiz yoxdur. Şamaxı toplantısından sonra onda belə bir fikir yarandı ki, rayonda da müvafiq yığıncaq keçirsin. Ona görə də bütün kəndlərdə olmuş, videoçəkilişlər aparmışıq.***

***Əvvəllər icra başçıları tapşırırdı ki, heç yana çıxmayın, kabinetlərdə oturub müvafiq göstərişimi gözləyin. Odur ki, yerlərlə əlaqə çox zəif idi. Seminardan-seminara görüşürdük. İndi vəziyyət tamam dəyişib. Başçımızın təmirlə bağlı bələdiyyələrə xüsusi tapşırığı olub. Belə ki, müəssisələrimizin əksəriyyətinin təmirə ehtiyacı var.***

**S.MAHMUDZADƏ**